# İSRAFİL ABBASLI -70

**VÜSAL ABİYEV**
**AMEA Folklor İnstitutu**

Hər bir insan dünyaya gəlməmişdən qabaq onun kim olacağı, hansı sənətin sahibi olacağı, necə ömür sürəcəyi Uca Rəbbimizə məlumdur. Allah-təala insan övladı üzərinə yaşadığı dövr ərzində müəyyən bir missiyanı yerinə yetirmək kimi vəzifələr qoyur. Həkim sağlamlığımızın keşiyində dayanır, müəllimin bizim savadlı kadr kimi yetişməyimizdə, maariflənməyimizdə xidmətləri danılmazdır.

Məlum olduğu kimi, xalqımızın milli-mənəvi dəyərlərinin təzahürü olan folklorunun toplanması, sistemləşdirilməsi və tədqiq edilərək gələcək nəslə ötürülməsi işində folklorşünas alimlərin misilsiz xidmətləri var. Görkəmli folklorşünas alim, bu yaxınlarda 70 yaşı tamam olmuş, yəni artıq ömrünün müdriklik, ucalıq çağlarını yaşayan, xalq ədəbiyyatımızın öyrənilməsi sahəsində bəlli yeri olan, haqqında ürək sözlərimi deyəcəyim AMEA Folklor İnstitutunun Azərbaycan folkloru şöbəsinin müdiri İsrafil Abbaslının da üzərinə məhz belə vəzifələrdən biri – mənsub olduğu xalqın milli-mənəvi dəyərlərinin təcəssümü olan folklorunu toplamaq, tədqiq etmək, onu gələcək nəslə yadigar qoymaq və s. düşmüşdür. İsrafil müəllimin dəyərli elmi tədqiqatları sayəsində folklorşünaslıq elmində geniş nailiyyətlər əldə edilmişdir. Onlarla kitabın, xeyli sayda məqalələrin müəllifi olan bu ziyalı insan neçə-neçə gənc aspirantların elm aləminə qədəm qoymasına yardımçı olmuşdur. O bu gün də istedadlı alimlərin yetişməsi üçün əlindən gələni əsirgəmir, şövqlə çalışır. Gənc folklorçu olduğumdan alimin zəngin elmi fəaliyyətinə bütövlükdə nəzər salmağa məndə maraq oyandı.

İsrafil müəllimin folklorşünaslıq fəaliyyətinin kulminasiya nöqtəsi deyərdim ki, onun erməni əlifbasında yazıya alınmış Azərbaycan folkloru nümunələrinin geniş tədqiqata cəlb etməsidir. O, görkəmli Azərbaycan şairi Qövsi Təbrizinin "Divan"ını çapa hazırlayır və tezliklə işıq üzü görəcəkdir. Bütün bunlardan əlavə o,

"Koroğlu" dastanının müxtəlif variantları haqqında da maraqlı elmi məqalələr dərc etdirmişdir. Qeyd edim ki, bu qısa məqalədə İsrafil müəllimin folklorşünaslıq fəaliyyətinə qısa da olsa nəzər saldıq.

İsrafil müəllim, Uca Allahdan Sizə uzun ömür, can sağlığı, xoşbəxtlik arzu edirəm. O gün olsun ki, 80, 90, 100 illik yubileylərinizdə də sizin haqqınızda səmimi ürək sözlərimi belə həvəslə oxucuların diqqətinə çatdırım.